

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 73 (23.485)

16 may 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik

## Rəsmi xronika



Mayın 15-də CISCO şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və CISCO rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.

Prezident İlham Əliyev qonaqları salamlayıb, onları yenidən gördüyünə çox şad olduğunu bildirib və deyib: – Davosda keçirdiyimiz görüşdən sonra görülmüş işləri nəzərdən keçirmək, eləcə də növbəti addımları planlaşdırmaq üçün bu görüş fürsətdir.

Azərbaycan Prezidentini salamlayan CISCO şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer deyib: – Sizi görməkdən olduqca məmnunam. Yaxşı və xoş təəssürat bağışlayan haldır ki, COVID-19 virusu ilə əlaqədar Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının toplantısında və Qoşulmama Hərəkatının görüşünün təşkil edilməsində liderlik səylərinizi nümayiş etdirdiniz. Çox böyük təəssürat bağışladı. Bir daha bu işlərə rəhbərlik etdiyinizə görə Sizə minnətdarıq.

CISCO şirkətinin vitse-prezidenti Qay Ditrix vaxt ayırdığı üçün Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirib.

Videokonfransın sonunda Prezident İlham Əliyev əməkdaşlığa və dəstəyə görə iştirakçılara minnətdarlığını bildirib və strateji tərəfdaşlığın bundan sonra da güclənəcəyinə əminliyini vurğulayıb.

## Culfa şəhərinin Heydər Əliyev prospekti yenidən qurulub





Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Biz müstəqillik şəraitində həyatımızın bütün sahələrini vətəndaşlarımızın tələbatına uyğun olaraq inkişaf etdirməli, qurub yaratmalıyıq".***

Bu gün muxtar respublikanın şəhər, rayon, qəsəbə və kəndlərini əhatə edən inkişaf, sabitlik və rifah ümummilli liderin siyasi xəttinin bəhrəsidir. Culfa şəhərində və rayonun kəndlərində aparılan quruculuq işləri insan amilinə verilən dəyəri ifadə edir. Rayonda dayanıqlı iqtisadi sistemin formalaşdırılması, yeni iş yerlərinin açılması sakinlərin rahat yaşayışına səbəb olmuş, abadlıq-quruculuq tədbirləri Culfa şəhərini müasir görkəmə qovuşdurmuşdur.

Mayın 15-də Culfa şəhərinin Heydər Əliyev prospekti əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, görülən işlərlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, Heydər Əliyev prospekti yenidən qurulmuş, 2700 metrlik avtomobil yolu genişləndirilərək yeni asfalt örtük salınmış, 78 su keçidi qoyulmuşdur. 4 zolaqlı yolda 58 yeni işıqlandırma dirəyi quraşdırılmış, kənarlarda səki salınmış, 2053 metr uzunluğundakı suvarma sistemləri yenisi ilə əvəz olunmuşdur.

Prospektdəki 7 ictimai yaşayış binasının fasadı, fərdi yaşayış evlərinin isə çardaq və hasarları da təmir edilmişdir.

## Culfa rayonunda Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə Evi istifadəyə verilib





Muxtar respublikada informasiya-kommunikasiya sisteminin təkmilləşdirilməsi və yeni texnologiyaların tətbiqi sahəsində kompleks tədbirlər həyata keçirilir. Maddi-texniki bazanın gücləndirilməsi iqtisadiyyatın bütün sahələrində yeni texnologiyaların uğurla tətbiqinə, yaşayış məntəqələrində poçt-rabitə xidmətlərinin səviyyəsinin yüksəldilməsinə səbəb olmuşdur. Hazırda muxtar respublikanın ən ucqar dağ kəndi də sürətli internetlə təmin olunmuş, sakinlərin yeni texnologiyaların imkanlarından və müasir rabitə xidmətindən istifadəsinə lazımi şərait yaradılmışdır.

Mayın 15-də Culfa rayonunda Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə Evi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar naziri Vüsal Sevdimalıyev çıxış edərək demişdir ki, muxtar respublikada rabitə sektoruna investisiyaların cəlbi müasir infrastrukturun qurulmasına səbəb olmuşdur. Artıq muxtar respublikada tam kəsintisiz telekommunikasiya sistemi mövcuddur. Naxçıvanın beynəlxalq transavrasiya fiber-optik magistrallarına ikitərəfli çıxışı təmin edilmişdir. Fiber-optik kabel xətləri üzərində qurulan iritutumlu telekommunikasiya şəbəkələri elektron hökumət, bank, maliyyə, vergi, təhsil, səhiyyə və digər sahələr üzrə elektron xidmətlərin təşkilinə imkan verir. Muxtar respublikanın hazırda qlobal internet sisteminə dördtərəfli çıxışı təmin edilmiş, bütün yaşayış məntəqələri genişzolaqlı sabit və 4-cü nəsil mobil internet xidmətləri ilə təmin edilmişdir. Rabitə sahəsində həyata keçirilən kompleks tədbirlərin davamı olaraq Culfa rayonunda Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə Evi istifadəyə verilir. Vüsal Sevdimalıyev yaradılan şəraitə görə bütün rabitə işçiləri adından minnətdarlıq etmişdir.

Culfa Rayon Rabitə İdarəsinin əməkdaşı

Ardı 2-ci səhifədə




Sevda Hüseynova demişdir: “Muxtar respublikada aparılan quruculuq işləri insanların həyat səviyyəsini günbəgün yaxşılaşdırır. Kollektivimiz heç vaxt bugünkü qədər müasir və rahat iş şəraiti ilə təmin olunmamışdı. İstər binanın tikilib istifadəyə verilməsi, istərsə də yeni nəsil telekommunikasiya sistemlərinin qurulması rayonumuzda rabitənin inkişafına göstərilən qayğının bariz nümunəsidir. Artıq Culfa rayonunun bütün yaşayış məntəqələrində insanlar ən müasir rabitə xidmətindən istifadə edəcəklər”.

Culfa Rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev çıxış edərək demişdir ki, muxtar respublikada yeni infrastruktur sahələrinin yaradılması, tikinti-quruculuq və abadlıq işləri Culfa rayonunu da əhatə etmişdir. Bu il Culfa şəhərində yanacaqdoldurma məntəqəsi və maye qazdoldurma stansiyası istifadəyə verilmişdir. Hazırda Camaldın kəndində kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, 252 yerlik məktəb binası yenidən qurulur. Culfa şəhərində “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımaları İdarəsi üçün vaqon təmiri sexi, idarəetmə mərkəzi və inzibati bina tikilir, Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi, Təhsil Şöbəsi, Darıdağa gedən yol və Ərəzin-Camaldın avtomobil yolu yenidən qurulur. Bununla yanaşı, Camaldın körpüsünün əsaslı təmiri, Ləkətağ körpüsü tarixi abidəsinin bərpası, Qazançı kəndində yeni məscid binasının, Bənəniyar, Saltaq, Yaycı, Əlincə və Xoşkeşin kəndlərində mərasim evlərinin tikintisi, Culfa şəhərində “Şəhidlər xiyabanı”nın, 27 və 42 nömrəli yaşayış binalarının yenidən qurulması, eləcə də “Darıdağ Arsenli Su Müalicə Kompleksi”nin tikintisi davam etdirilir. 2020-ci ilin məhsulu üçün rayonda 7896 hektar sahədə əkin aparılmışdır ki, bunun da 7574 hektarı taxıldır. Siyam Hacıyev göstərilən qayğıya görə rayon əhalisi adından minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Ölkəmizdə həyata keçirilən dövlət proqramlarının tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasında da yeni proqramlar qəbul olunaraq icra edilir. Bu gün Culfa şəhərinin Heydər Əliyev prospektinin, rayonda Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə Evinin istifadəyə verilməsi də dövlət proqramları çərçivəsində görülən işlərdir.

Ali Məclisin Sədri bu münasibətlə rayon sakinlərini təbrik edərək demişdir: Culfa rayonu 1 şəhər və 22 kənddən ibarətdir. Rayonda 47 mindən artıq əhali yaşayır. Culfa rayonunda əhalini dayanıqlı rabitə və yüksək sürətli internet xidmətləri ilə təmin etmək üçün müasir sistemin qurulmasına ehtiyac var idi. 2018-ci ilin noyabr ayında Çin Xalq Respublikasının “Huawei” şirkəti ilə bağlanmış müqavilə əsasında müasir texnologiyalar alınmış və rayonda Yeni Nəsil Telekommunikasiya sistemləri qurulmuşdur. Bu gün rayonun bütün yaşayış məntəqələrini əhatə edən 9 min 344 nömrə yerlik 28 yeni nəsil telefon stansiyası və Rabitə Evi sakinlərin istifadəsinə verilir. Hazırda Culfa rayonunda 7 minə yaxın telefon və 4 minə yaxın internet istifadəçisi vardır. Bunlar mühüm nəticələrdir. Çünki muxtar respublikada müasir telekommunikasiya sistemlərinin qurulması insanların yeni texnologiyalardan rahat istifadə etməsinə imkan verir. Culfa rayonunun timsalında bunu görmək mümkündür.

Ali Məclis Sədri demişdir: Yeni nəsil telefon stansiyaları vasitəsilə əhaliyə yalnız telefon və internet deyil, eyni zamanda 25-ə yaxın digər rabitə xidmətləri göstəriləcəkdir. Bu gün həyatı yeni texnologiyalarsız təsəvvür etmək mümkün deyil. Culfa rayonunun bütün kəndlərinə fiber-optik kabel xətlərinin çəkilməsi, yeni nəsil stansiyaların qurulması, 20 poçt bölməsinin fəaliyyət göstərməsi, 4-cü nəsil “Naxtel” mobil operatorunun, eləcə də “Azercell”, “Bakcell” və “Azerfon” mobil operatorlarının yaşayış məntəqələrini tamamilə əhatə etməsi bunu bir daha təsdiq edir. Bütün bunlar da imkan verir ki, sakinlər istənilən telekommunikasiya sistemlərindən rahat istifadə etsinlər. Rabitə Evində Culfa Rayon Rabitə İdarəsi ilə yanaşı, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin Culfa rayon filialı, “Naxtel” müştəri xidmətləri və “Naxçıvanpoçt” publik hüquqi şəxsinin Culfa rayon filialının işçiləri üçün də müasir iş şəraiti yaradılmışdır. Müasir iş şəraiti məsuliyyəti daha da artırmalı, avadanlıqlardan düzgün istifadə olunmalı və göstərilən xidmətin səviyyəsi yüksəldilməlidir. Çünki dövlətin həyata keçirdiyi bu tədbirlərin əsas məqsədi də ondan ibarətdir ki, sakinlər yaşadıqları yerlərdə hərtərəfli rabitə və internet xidmətləri ilə təmin olunsunlar, vaxtlarını daha çox öz təsərrüfatlarına və işlərinə sərf etsinlər.



Ali Məclisin Sədri bir daha sakinləri təbrik etmiş, yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmişdir.

Sonra Ali Məclisin Sədrinə Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə Evi haqqında məlumat verilmişdir. Bildirilmişdir ki, muxtar respublikada 2005-ci ildən optik şəbəkənin qurulmasına, 2010-cu ildən isə mərhələlərlə yeni nəsil texnologiyanın tətbiqinə başlanmışdır. Hazırda muxtar respublika üzrə istismar olunan 213 avtomat telefon stansiyasından 195-i və ya 91,5 faizi yeni nəsil texnologiyaya əsaslanır. Culfa rayonunda 9 min 344 nömrə tutumu olan 28 yeni nəsil telefon stansiyası qurulmuş, 3 qovşaq yaradılmış, bütün yaşayış məntəqələri telefonlaşdırılmışdır. Yeni sistem abunəçilərə telefon, videotelefon, İP televiziya, genişzolaqlı internet, qapalı virtual şəbəkələr və digər xidmətlərin göstərilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri Culfa rayonu ərazisində qurulan Yeni Nəsil Telekommunikasiya Sistemini işə salmışdır.

Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada Culfa Rayon Rabitə İdarəsi, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin Culfa rayon filialı, “Naxtel” müştəri xidmətləri, “Naxçıvanpoçt” publik hüquqi şəxsinin Culfa rayon filialının fəaliyyəti üçün lazımi iş şəraiti yaradılmışdır. Binada müvafiq sahələrə uyğun olaraq tədris, arxiv, mühəndis, poçt göndərişləri, avtomat telefon stansiyası, daxili şəbəkə, təlimat və digər xidməti otaqlar, iclas və xidmət zalları, bufet yerləşir.



“Naxçıvanpoçt” publik hüquqi şəxsin Culfa rayon filialı 19-u kənd, 1-i hərbi şəhərcikdə olmaqla, 20 poçt bölməsindən ibarətdir. Müasirtipli binalarla təmin olunmuş bütün poçt bölmələri kompüterləşdirilmiş və POS-terminallar quraşdırılmışdır. Poçt bölmələrində ənənəvi xidmətlərlə yanaşı, kommunal ödənişlərin, sığorta və üzvlük haqlarının, dövlət yol polisi cərimələrinin, bələdiyyə rüsumlarının və kreditlərin ödənilməsi, pensiya və sosial yardımların paylanması həyata keçirilir. Bundan başqa, poçt bölmələrində əhaliyə itmiş əşyaların sahibinə çatdırılması və “Naxtel” müştəri xidmətləri də göstərilir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda iftar yeməkləri paylanıb

Müqəddəs kitabımız “Qurani-Kərim”in insanlara çatdırılması, əmin-amanlıq və mərhəmət duyğularının təlqin edilməsi, həmrəylik, birlik Ramazan ayının ən ali fəzilətlərindəndir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Ramazan ayı dünya xalqlarının mənəviyyatı tarixinə böyük təsir göstərmiş mübarək aylardan biridir. Sülhün, əmin-amanlığın, qardaşlığın bərqərar edilməsinə dəvət edən İslam dininin bu müqəddəs ayında müsəlmanlar humanist prinsiplərin təntənəsi naminə hər cür sınaqlara sinə gərmək qabiliyyətlərini nümayiş etdirirlər”.***





Muxtar respublikada Ramazan ayı və orucluq mərasimləri mənəvi dəyərlərimizə uyğun keçirilir. Pandemiya dövründə kütləvi iftar mərasimlərinin yerinə iftar yeməklərinin paylanması həm mənəvi dəyərlərimizin yaşadılmasına, həm də sağlamlığımızın qorunmasına xidmət edir.

Mayın 15-də müqəddəs Ramazan ayı münasibətilə Naxçıvan şəhərindəki məscidlərdə dindarlara və məscid əhlinə, eləcə də ali təhsil müəssisələrində təhsil alan tələbələrə, hərbi hospitalda müalicə alan xəstələrə, muxtar respublikada işləyən xarici ölkə vətəndaşlarına və sosial qayğıya ehtiyacı olanlara iftar yeməkləri paylanmışdır.

**“Şərq qapısı”**

# Gənclərin təlim-tərbiyəsində muzeylərimiz xüsusi əhəmiyyətə malikdir

*Heç kəsə sirr deyil ki, gənclərin düzgün istiqamətdə, milli və bəşəri dəyərlər zəminində tərbiyəsində təhsil müəssisələri ilə yanaşı, mədəniyyət müəssisələrinin də özünəməxsus payı vardır. Ulu öndər Heydər Əliyev muzeylərin gənclərin təlim-tərbiyəsindəki rolunu yüksək qiymətləndirərək demişdir:* ***“Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır və bu muzeyləri qoruyub saxlamaq vətəndaşlıq borcumuzdur”.*** *Muxtar respublikamızda müxtəlif profilli muzeylər fəaliyyət göstərir ki, bunlar da gənclərin təlim-tərbiyəsində, ümumi dünyagörüşünün və mədəni-estetik zövqünün formalaşmasında müstəsna əhəmiyyətə malikdir.*



Dünya mədəniyyətinin nadir nümunələrini, xalqımızın mübarizə və qəhrəmanlıq tarixini, görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığını toplamaq və bunu gənc nəslə bir nümunə olaraq təqdim etmək muzeylərin başlıca məqsədidir. Bu mənada, muxtar respublika muzeylərində sistematik olaraq keçirilən tədbirlər, elmi-praktik konfranslar, dəyirmi masalar və açıq dərslər, seminarlar, yaradılan sərgilər, məsafəli tədrisin inkişafı üçün nəzərdə tutulan onlayn tədbirlər gənclərin ideya-tərbiyə prosesində həlledici rol oynayır. Muzeylərin maddi-sosial bazasından istifadə etməklə gənclərə milli dəyərlərimizin aşılanması, ictimai-siyasi fəallıqlarının gücləndirilməsi əhəmiyyətli bir vəzifə kimi qarşıya qoyulur.

Cəmiyyətin inkişafında mühüm rol oynayan amillərdən biri onlarda yüksək vətənpərvərlik hisslərinin formalaşdırılmasıdır. Vətənə məhəbbət və sədaqət mənəviyyatımızın ayrılmaz tərkib hissəsidir. Lakin Vətəni sevmək və qorumaq, düşmənə qarşı barışmazlıq hisslərinin fövqündə hərbi-vətənpərvərlik hissləri dayanır. Və bu gün bu hisslərin aşılanması günün ən vacib məsələlərindəndir. Xüsusilə torpaqlarımızın işğal altında, ölkəmizin müharibə şəraitində olduğu bir dövrdə gənclərimizdə hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşdırılması çox mühüm əhəmiyyətə malikdir.

Hərb tariximizi və bu tarixi yaradan görkəmli sərkərdələrimizin, hərbi xadimlərimizin, milli qəhrəmanlarımızın keçdiyi döyüş yolunu təbliğ etməklə Cəmşid Naxçıvanski Muzeyi hərbi-vətənpərvərlik hisslərinin aşılanmasında təsiredici qüvvəyə malikdir. Təcrübə göstərir ki, Cəmşid Naxçıvanskinin və sələflərinin keçdiyi şərəfli döyüş yolu, həyatlarının ən ağır dönəmlərində belə, Vətənə sonsuz sevgiləri, sədaqətləri, milli istiqlaliyyət tariximizdə xüsusi çəkisi olan Araz-Türk Respublikasının yaradılması və fəaliyyəti gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsində müstəsna rol oynayır. Naxçıvanın tarixinə, mədəniyyətinə, görkəmli şəxsiyyətlərinə böyük diqqət və qayğı ilə yanaşan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov XIX əsr tarix-mədəniyyət abidəsi olan Naxçıvanskilər malikanəsinin əsaslı təmir və bərpadan sonra rəsmi açılış mərasimində demişdir: ***“Bu gün açılışına toplaşdığımız bu tarixi bina 3 əsrin tarixi yaddaşını qorumaqla, xalqın azadlıq və müstəqillik epopeyasına 1918-ci ildən 1920-ci ilədək fəaliyyət göstərmiş Araz-Türk Respublikası hökumətinin fəaliyyətini də yazmışdır. Bu muzeydə Cəmşid Naxçıvanski ilə bərabər xalqımızın 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərindəki milli azadlıq və istiqlaliyyət uğrundakı mübarizəsində qəhrəmanlıq göstərən tarixi şəxsiyyətlərinin fəaliyyəti də əks olunur”.*** Bu tarixi çıxışda Ali Məclisin Sədri Cəmşid Naxçıvanski Muzeyinə tarixin ən böyük qiymətini vermişdir: ***“Naxçıvan tarixinin, tanınmış hərb xadimlərinin irsinin qorunub saxlandığı Cəmşid Naxçıvanski Muzeyi xalqın tarixi yaddaş salnaməsi, eyni zamanda vətənpərvərlik təliminin, dövlətçilik ənənələrinin daşıyıcısı olan mədəniyyət mərkəzidir”.***



Naxçıvan şəhərində və muxtar respublikamızda fəaliyyət göstərən digər muzeylərə səyahət edək. Naxçıvan Xatirə Muzeyində sərgilənən Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda döyüşərək qızıl qanları ilə tarix yazan Milli qəhrəmanlarımızın mübariz həyat hekayəsi, Naxçıvanqala Muzey Kompleksində nümayiş olunan tariximizin daş yaddaşı, orada keçirilən mədəni-kütləvi tədbirlər, Açıq Səma Altında Muzey Kompleksində nümayiş etdirilən qoç heykəllər, sənduqələr və digər illüstratik totemlər, Hüseyn Cavidin ev-muzeyində böyük dramaturqun fəlsəfi pyesləri, tamaşaların ssenari mətnləri və afişaları, dahi mütəfəkkir Cəlil Məmmədquluzadənin ev-muzeyində əsri yerindən oynadan felyetonları, geriliyə və xurafata qarşı barışmaz mübarizəsi, Cəmşid Naxçıvanskinin də mənsub olduğu Kəngərli nəslinin görkəmli nümayəndəsi, Azərbaycanın ilk realist rəssamı Bəhruz Kəngərli Muzeyində sərgilənən onlarla rəsm əsərlərində onun fırçasının sehri bugünkü gənclik, elm və sənət adamları, eləcə də müstəqil Azərbaycanın hər bir vətəndaşı üçün nə qədər qiymətli və dəyərlidir.

Ordubad şəhərində fəaliyyət göstərən Məhəmməd Tağı Sidqinin ev-muzeyində sərgilənən, böyük ustalıqla qələmə aldığı əsərləri bu günün müəllimi üçün ən sanballı metodik vəsaitdir. Məmməd Səid Ordubadinin bir kitabxana dəyərində olan elmi-tarixi əsərləri, millilik və xəlqiliklə yoğrulmuş publisistikası zəngin mənəvi xəzinəmizdir. Kəngərli rayonunda Şahtaxtinskilər irsini tədqiq və təbliğ edən muzeydə XX əsrin əvvəllərində Naxçıvanın ərazi taleyini, muxtariyyət statusunu həll edən Moskva və Qars müqavilələrinin başlanmasında insanı heyrətə salacaq dərəcədə fədakarlıq və əzmkarlıq göstərən Behbud ağa Şahtaxtinskinin diplomatiyası və bu nəslə məxsus digər maddi mədəniyyət nümunələri böyük vətənpərvərlik və ziyalılıq məktəbidir. Şahbuz rayonunda müasir Azərbaycan poeziyasının baş tacı sayılan Məmməd Arazın poetik dünyası, şairin özünün dili ilə desək, şeirlərinin mayası, qayəsi, ilham pərisi olan kəndi, evi, ocağı – ev-muzeyi özlüyündə bir poeziya kəhkəşanıdır. Culfa rayonunda mübarizə və əyilməzlik rəmzimiz Əlincə qalası və muzeyi tarixin vətənpərvərlik, qəhrəmanlıq dərsidir. Cəlilkənddə və Nehrəmdə böyük ədib Cəlil Məmmədquluzadənin xatirəsini yaşadan muzeylərimiz ədəbiyyat, mənəviyyat məbədləridir. Bu memorial muzeylər müasir Azərbaycan gəncliyinin mütəmadi ziyarət etdiyi mədəniyyət ocaqlarıdır. Həmin sehrli məkanlar gəncliyin incə ruhunu oxşayaraq onların düzgün istiqamətdə formalaşmasında əvəzsiz rol oynamaqdadır.

Rayonlarda fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərini, dünya mədəniyyətinin bir parçası olan Naxçıvan memarlıq məktəbinə məxsus məqbərə və türbələri, zaviyə və təkkələri də bura əlavə etsək, görərik ki, bu mədəniyyət mərkəzləri zəngin tərtibatı, dizayn və memarlıq üslubu ilə zamanın fövqündə dayanan əsərlərdir. Bunları ziyarət edən gənclik insan əməyinin, halallığın, səbrin və fədakarlığın nələrə qadir olduğunu düşünərək riqqətə gəlir. Möminə xatın və Qarabağlar türbələri insanın zövqünü oxşayan memarlıq konstruksiyası ilə yanaşı, babalarımızın qadına və anaya verdiyi yüksək dəyərin bariz nümunəsidir. Bu əsərlər Azərbaycan milli mentalitetinin daşıyıcıları olaraq dünya və Şərq memarlığında qadının şərəfinə ucaldılan ilkin daş abidələrdəndir. Tədris və mədəniyyət müəssisələrində gənclərlə işləyərkən tarixin bizə ərməğan etdiyi qızıl xəzinəni düzgün təbliğ etmək isə gələcək cəmiyyətimizi formalaşdırmağa xidmət edir.



Zəngin fondlardan istifadə edilərək yeni nəsil muzeylərin düzgün tərtibatı, ekspozisiyaların milli ornamentlərlə məhsuldar qurulması, bu maddi mədəniyyət nümunələrinin səmərəli tədqiqi və təbliğinin məntiqi nəticəsidir ki, bu gün muxtar respublikamızda dizayner-rəssamlıq, ebru sənəti, qum üzərində bədii illüstrasiyalar, həmçinin xalçaçılıq və toxuculuq, dekorativ-tətbiqi sənət, papaqçılıq, dulusçuluq, xarratlıq, qədim xalq çalğı alətlərinin bərpası və yenisinin düzəldilməsi, misgərlik və digər xalq yaradıcılığı nümunələri sürətlə inkişaf etməkdədir. Bütün bunlar, eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin milli vətənpərvərlik duyğusu və müdrik rəhbər qayğısı ilə imzaladığı müvafiq sərəncamların, tövsiyə və tapşırıqlarının icrasıdır.

Dövlət Bayrağı Muzeyində dövlətçilik tariximizin rəmzləri və simvolları, muxtariyyət tariximizlə həmyaşıd olan, öz zəngin fondunda 5 minillik şəhər mədəniyyətimizlə yanaşı, dünya mədəniyyətinin inciləri sayılan Boyalı qablar, Kür-Araz və geniş tədqiqata ehtiyacı olan digər mədəniyyətləri mühafizə edən Naxçıvan Dövlət Tarix Muzeyi bizi tarixin dərin qatlarına səyahətə aparır. İnsan əməyinin və zəkasının nələrə qadir olduğunu dünyaya sərgiləyən Naxçıvan Duz Muzeyi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Kompleksində Naxçıvan xanlığının inzibati idarəçilik taktikası şanlı keçmişimizlə qürur hissi aşılayır. Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyində sərgilənən klassik və müasir ədəbiyyat nümunələri onları yaradan dahiləri köksündə qoruyur. Rəsm qalereyasında dünya və Azərbaycan rəngkarlığının nadir nümunələri, Naxçıvan rəssamlıq məktəbinin özünəməxsus çalarları yaşadılır. Və ən nəhayət, bütün muzeylərin flaqmanı, fəxr və qürur, and yerimiz Heydər Əliyev Muzeyində mühafizə və nümayiş olunan ümummilli liderin, əslində, muzeylərə sığmayacaq qədər böyük, əzəmətli və fəxarətli irsi əsl vətənpərvərlik məktəbi, şərəfli bir ömrün inikasıdır. Bu maddi mədəniyyət nümunələri ömrünü xalqı uğrunda şam kimi yandıran bir insanın bugünkü gəncliyə miras buraxdığı müstəqil Azərbaycanın özü qədər dəyərli əmanətidir.

Muxtar respublika rəhbərinin müvafiq tapşırıq və tövsiyələrinə əsasən digər mədəniyyət müəssisələri kimi, muzeylər də mövcud şəraitlə əlaqədar müvəqqəti olaraq onlayn fəaliyyət göstərib ki, bu da sosial şəbəkə istifadəçilərinin əsas kontingenti sayılan gənclər tərəfindən böyük maraqla qarşılanıb. Müxtəlif çeşidli onlayn materialların hazırlanması və geniş tamaşaçı kütləsinə təqdim olunması ilə mədəniyyət müəssisələrinin lazım olan maddi-sosial bazaya və peşəkar kadr potensialına malik olduğu təsdiqləndi. Hər bir müəssisə yüksəksürətli internetlə təmin olunmuşdur ki, bu da mədəniyyət müəssisələrinə dövlət qayğısının bariz nümunəsidir.

***Ulu diyarımızda qədim və zəngin tariximizin, mədəni irsimizin, milli dəyərlərimizin yaşadılmasına və təbliğinə göstərilən dövlət qayğısından, yaradılan şəraitdən bəhrələnərək, mövcud olan yüksəksürətli internet resurslarından istifadə edərək doğma diyarımızın tarix-mədəniyyət abidələrini, incəsənətini, adət-ənənələrini, folklorunu, füsunkar flora və faunasını böyük məhəbbətlə və yüksək vətənpərvərlik hissi ilə təbliğ etməliyik. Babalarımızın bizə miras qoyduğu bu əsrarəngiz mədəniyyəti göz bəbəyimiz kimi qoruyub gələcək nəsillərə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur.***

**Abasət NURİYEV**
*Cəmşid Naxçıvanski Muzeyinin direktoru*

## Onlayn elmi-praktik konfrans keçirilib



“Naxçıvan” Universitetinin İdarəetmə kafedrasının təşkilatçılığı ilə “Biznes mühiti və insan kapitalı” mövzusunda keçirilən onlayn elmi-praktik konfransı giriş sözü ilə ali təhsil ocağının rektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyeva açıb. Bildirilib ki, mövcud vəziyyətlə əlaqədar olaraq universitetdə tədrisin təşkili onlayn formada günün tələblərinə uyğun olaraq yüksək səviyyədə aparılır. Müasir dövrdə hər bir xalqın, dövlətin gələcək taleyini təkcə onun malik olduğu zəngin təbii sərvətlər deyil, həm də elmi-mədəni və intellektual imkanları, bütün bunların da fövqündə dayanan insan kapitalı müəyyənləşdirir. Funksional imkanları elm və təhsilin ictimai həyatın ən müxtəlif sahələrində tətbiqi yolu ilə gerçəkləşdirilən bu əvəzsiz kapital hazırkı mərhələdə fərd və ictimai toplumların, geniş mənada, xalqların gələcək inkişafının, yaşayış səviyyəsinin, habelə qazandığı nailiyyətlərin rəhni kimi çıxış edir.

Sonra İdarəetmə kafedrasının müəllimi, dosent Mehriban İmanovanın, İqtisadiyyat fakültəsinin dekanı Zakir Məmmədovun, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin əməkdaşı Qənbər Xudiyevin və universitetin Maliyyə ixtisası üzrə II kurs tələbəsi Rübabə Məmmədovanın çıxışları dinlənilib.

Çıxışlarda vurğulanıb ki, insan kapitalı öz mahiyyəti etibarilə insanda bilik və bacarıqların artırılması sayəsində mövcud ehtiyatlardan daha faydalı istifadəni, hətta istehsal imkanlarının məhdudluğu şəraitində daha yüksək nəticələrə nail olunmasını şərtləndirir. İnsan kapitalı iqtisadi imkanlara deyil, əqli imkanlara görə daha çox məhsul və nemət istehsal etməyə qadirdir.

Sonda konfrans iştirakçılarının sualları cavablandırılıb.

**Seyfur HACIMURADOV**

## Naxçıvanlı məktəbli beynəlxalq müsabiqədə diploma layiq görülüb

Moskvada keçirilən Məktəblilərin “Elmə start” IX Beynəlxalq elmi-tədqiqat və yaradıcılıq müsabiqəsində iştirak edən AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Hidrogeologiya və mineral sular laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədovanın rəhbərliyi ilə Eynəli bəy Sultanov adına Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin X sinif şagirdi İlhamə Novruzova ikinci dərəcəli diploma mükafatlandırılıb.

Fizzə Məmmədova isə beynəlxalq müsabiqənin sertifikatını alıb.

Məktəblilərin intellektual potensialının, elmi-tədqiqat və yaradıcılıq fəaliyyətinin yüksəldilməsi məqsədilə təşkil edilən beynəlxalq müsabiqədə 20 bölmə üzrə 1510 layihə iştirak edib. İlhamə Novruzovanın “Həyatın melodiyası – kimya” layihəsi II yerə layiq görülüb və ən yaxşı layihə kimi “Məktəblilərin Beynəlxalq Elm Xəbərləri” jurnalına dərcə göndərilib.

Qeyd edək ki, “Elmə start” Beynəlxalq müsabiqənin yekun mərhələsi 12-15 oktyabr tarixlərində Soçidə Rusiya Federasiyasının Prezidentinin İşlər İdarəsi “DAQOMIS”də keçiriləcək.

***AMEA Naxçıvan Bölməsinin Beynəlxalq əlaqələr və informasiya şöbəsi***

*Uzaqda, qəriblikdə, əsarətdə qalan bir yurd var!.. İllərdir, öz doğmalarının yolunu gözləyən, isti nəfəsindən uzaq qalan, yollara dikilən gözlərinə həsrət çökən bir yurd... Neçə vaxtdır ki, o yurdun dağlarının gözləri yolda, qulaqları səsdə qalıb. Başına od ələnir, zirvəsində ildırımlar çaxnaşır dağlarının. Artıq o dağlardan nə Xanın səsi ucalır, nə də Qarabağ şikəstəsi. Doğma insanlarının səsinə həsrət qalıb, düşmən əlində yad baxışları, yad nəfəsləri qəbul edə bilmir o dağlar... İllərdir, nə payızı payızdı , nə də ki yazı yaz Laçının...*

# Zəfər bayrağımız tezliklə Laçında da dalğalanacaq



Qarabağın iki ən gözəl şəhəri Şuşa və Laçın iki dost, qardaş kimi yaşayıb. Adları həmişə bir çəkilib. Təbiəti bir-birinə bənzədiyi kimi taleyi də bir oldu onların. Şuşa xəyanətin qurbanı olduqdan cəmi 10 gün sonra Laçın rayonu da düşmən tapdağına məruz qaldı. Döyüşçülərin Şuşanı tərk edərək Turşsu və Laçına doğru geri çəkilməsinin səbəbi isə texnikanın sayının az olması və Bakıdakı hakimiyyət çəkişmələri idi. Həmin dövrdə Qarabağda baş verənlər o zaman hakimiyyətdə olanları əsla maraqlandırmırdı. Havadarlarından güc alan Ermənistan isə əksinə, bütün qüvvəsini Laçını işğal etməyə sərf edirdi. 1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri Qarabağın dağlıq hissəsində Azərbaycanın qədim mədəniyyət və musiqi mərkəzi olan Şuşanı ələ keçirməklə bütün Yuxarı Qarabağı işğal etsələr də, gözləri doymadı. Bundan sonra erməni hərbi birləşmələri qəsb etdikləri torpaqlarda möhkəmlənmək və Qarabağın dağlıq hissəsi ilə Ermənistanı birləşdirmək üçün Laçın rayonuna aramsız hücumlara başladı. Şuşa kimi Laçının da mühüm hərbi-strateji əhəmiyyət kəsb etdiyini nəzərə alan düşmən mayın 13-ü və 14-də zirehli texnikalar, Mi-24 vertolyotlarının müşayiətilə Qayğı qəsəbəsi və Laçın şəhərini bombardman etdi.

1992-ci il mayın 16-dan 17-nə keçən gecə Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçən erməni silahlı birləşmələri mayın 18-də rayonu işğal etdi. Ermənistan silahlı qüvvələri Azərbaycanın qala qapısı sayılan Laçın rayonunun bir şəhər, bir qəsəbə, 125 kəndini, 1835 kvadratkilometrlik ərazisini işğal edib. Bu qəsbkarlıq nəticəsində rayon ərazisindəki 54 dünya və 200-dən çox yerli əhəmiyyətli tarixi, mədəniyyət və dini abidələrimiz erməni vandalizminə məruz qalaraq dağıdılıb. 13 min 745 yaşayış evi, 48 sənaye, 63 kənd təsərrüfatı, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə, 462 ticarət, 96 məişət, 30 rabitə, 2 avtonəqliyyat müəssisəsi və digər obyektlər bütün əmlakı ilə birlikdə talan və məhv edilib. 72 min hektarlıq yaylaq sahəsi, 34 min hektar nadir və zəngin meşə zolağı olan Laçın rayonunda əhalinin bütün varidatı işğal zonasında qalaraq qarət edilib.

Bu itkilərimiz içərisində ən ağırı və unudulmazı işğal zamanı rayon sakinlərindən 238 nəfərin ermənilər tərəfindən işgəncələrlə və insanlığa yaraşmayan üsullarla öldürülməsi, 66 nəfərin itkin düşməsi, 120 nəfərin əlil və şikəst olması, yüzlərlə uşağın bir valideynini, 31 uşağın isə hər iki valideynini itirməsidir. İtkin düşmüş və girov götürülmüş 66 nəfərin taleyi bu gün də məlum deyil.

Laçının düşmən əlinə keçməsi müharibənin Dağlıq Qarabağ hüdudlarından çıxdığını, Ermənistanın işğalçılıq niyyətlərinin daha böyük olduğunu göstərdi. Məkrli planlarını ölkəmizdə yaranan qarışıqlıqdan da istifadə edərək daha geniş formada həyata keçirən ermənilər Laçın dəhlizi ilə Qarabağa gətirilən silah, döyüş sursatı və hərbi qüvvələr vasitəsilə təcavüzün miqyasını daha da genişləndirdi, ətraf rayonların taleyini təhlükə altında qoydu. Bu, həmin vaxtlar idi ki, Bakıda hakimiyyət davası gedirdi. Başı kreslo davasına qarışan ovaxtkı rəhbərlik nə torpaqların işğalına, nə də oradan didərgin düşən insanların taleyinə yanırdı. Bütün bunları, bir-birinin ardınca baş verən hadisələrin heç də yaxşı sonluqla bitməyəcəyini görən xalq nə yaxşı ki, ümummilli liderimizi böyük təkidlə hakimiyyətə dəvət etdi. Məhz ulu öndərimiz ölkə rəhbərliyinə gələndən sonra bütün bu siyasi çəkişmələrə son qoyuldu. Həyata keçirilən qətiyyətli siyasət nəticəsində informasiya blokadası aradan qaldırıldı, qüdrətli ordu yaradıldı, müstəqilliyimiz, varlığımız, qalan torpaqlarımız işğaldan xilas edildi.

Laçında eramızdan əvvəl II-I minillikdən başlayan məskunlaşmanın tarixi buranın qədim Azərbaycan yurdu olduğunu bir daha təsdiq edir. Rayonun Mirik kəndi ərazisindəki Qaranlıq kaha, Bayqara mağaraları, Hoçaz kəndindəki mağara-məbəd bu qədim tarixin nişanələridir. Maraqlı məqam ondan ibarətdir ki, Qobustan və Gəmiqayadan sonra məhz Laçın ərazisində qədim qaya təsvirləri, daş üzərində süjet xarakterli oymalar aşkara çıxarılıb. Bütün bunlar isə, təbii ki, protoazərbaycanlıların qədim tarixə söykənən mədəni inkişafının müxtəlif bölgələrimizdə meydana çıxan ortaq təzahürləridir. Rayon ərazisindəki IX əsrə aid Ağoğlan qəsri, XI əsrə aid Dəmrovlu pir məbədi, XII əsrin abidəsi olan Malik Əjdər türbəsi, XV əsrin yadigarı Uşaq qalası, XVII əsrin nişanələrini saxlayan Kar günbəz və digər tarixi abidələr öz memarlıq üslubu ilə qədim dövrlərdən ərazidə türk tayfalarının məskən saldığını təsdiqləyir.

Çar Rusiyası dövründən başlayaraq 1930-cu ildə müstəqil inzibati rayon kimi təşkil olunana qədər Qarabağ xanlığı və Zəngəzur qəzasına daxil olmuş bu ərazinin ilk adı türk "Abdal" tayfasının adından götürülüb. 1924-cü ilə qədər indiki Laçın rayonu məhz "Abdallar" adlanıb.

1924-cü ildən şəhər statusu alan Laçın şəhəri 1930-cu ildən rayon mərkəzinə çevrilib. Şəhərin adı görkəmli Azərbaycan yazıçısı Tağı Şahbazi Simurq tərəfindən yaxınlıqdakı dağın adına uyğun olaraq Laçın adlandırılıb. "Laçın" sözü "məğrurluq" mənasını bildirir.

Lakin çox təəssüf ki, bu qədim yurd yerimizdə xalqımıza məxsus Ağoğlan məbədi (IX əsr), Dəmrovlu pir məbədi ( XI əsr), Cicimli kəndində Malik Əjdər türbəsi (XII əsr), Kar günbəz türbəsi (XVII), Soltanlar kəndində Həmzə Soltan sarayı (1761-ci il), Quşçu kəndində pir (XII-XIII əsrlər), Uşaq qalası (XV əsr), Şəlvə kəndində məbəd, Mirik kəndi ərazisində qala (XV əsr), Qaranlıq kaha, Bayqara mağaraları, Zeyvə kəndində Soltanbaba türbəsi, Güləbird kəndində Sultanbud məbədi, Minkənd kəndində Alban kilsəsi, X-XIX əsrlərə aid ikitağlı və birtağlı körpülər, Seyidlər kəndində birtağlı körpü (XIX əsr), Pircahan körpüsü, orta əsrlərə aid sənduqə, qoç və at abidələri, Dəmir və Tunc dövrlərinə aid kurqanlar, qəbiristanlıqlar və onlarla digər məbədlər erməni vəhşiliyinin qurbanına çevrilib. Rayondakı tarixi, mədəni və dini abidələrin bir çoxu dağıdılıb, bir çoxu isə erməniləşdirilib.

Laçın həm də zəngin təbii sərvətlərə və əsrarəngiz gözəlliyə malik qədim Azərbaycan torpağıdır. Rayonun şərqində Qarabağ silsiləsinin cənub-qərb yamacları, şimalında Mıxtökən silsiləsi uzanır. Cənub-qərb hissəsini Qarabağ yaylası tutur. Ən yüksək dağ zirvəsi Qızılboğazın hündürlüyü 3594 metrdir. Bol su ehtiyatları olan rayonun ərazisindən axan Şəlvə və Minkənd çayları birləşərək Həkəri çayını (uzunluğu 113 kilometr) yaradır ki, bu çay da Araza qovuşur. Ərazisində Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turş-tiqiq, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqlar, zəngin meşələr, yaylaqlar var. 1961-ci ildə rayon ərazisində nadir təbiət komplekslərini qorumaq üçün yaradılan Laçın Dövlət Təbiət Yasaqlığı 20 min hektar, 1987-ci ildə yaradılan Qaragöl Dövlət Təbiət Qoruğu isə 240 hektar ərazini əhatə edirdi. Bu qoruq və yasaqlıqda bitki örtüyü, nadir fauna növləri mövcud idi.

Laçın rayonu üzrə 33 min 285 hektar meşə fondu torpaqları var ki, bunun da meşə ilə örtülü sahəsi 26 min 647 hektardır. Meşələrdə şam, palıd, vələs, göyrüş, ağcaqayın, qaraağac, akasiya, qovaq, söyüd, dəmirqara, armud ağacları üstünlük təşkil edirdi. Rayonda Həkəri çayının sağ sahilində və Zabux kəndində 400 yaşlı 2 ədəd Şərq çinarı, dövlət meşə fondu torpaqlarında 1092 hektar sahəni əhatə edən zəngin meşələr var idi. Buradakı nadir ağac növləri illərdir, qırılaraq Ermənistana daşınır. Ərazisindəki 3 civə (Narzanlı, Çilgəzçay, Sarıbulaq), əhəngdaşı, Qoçaz mərmərləşmiş əhəngdaşı, mişardaşı istehsalına yararlı 2 tuf (Ağoğlan, Əhmədli), kərpic-kirəmit istehsalına yararlı Novruzlu gil, həmçinin Quşçu pemza, Yuxarı Həkəriçay qum-çınqıl qarışığı, əqiq, 2 əlvan bəzək daşı, 3 vulkan külü və Minkənd mineral su yataqları, müxtəlifrəngli mərmər, kobalt, bazalt, civə, qızıl, dəmir, uran, qranit yataqları 28 ildir ki, dünya ictimaiyyətinin gözü qarşısında ermənilər tərəfindən talan edilir. 28 ildir ki, Laçının 74 min nəfərdən çox sakini respublikanın 59 şəhər və rayonunda, o cümlədən Ağcabədi rayonunun Taxtakörpü ərazisində 84 obada məcburi köçkün həyatı yaşayır...

*Könlüm keçir Qarabağdan,*
*Gah o dağdan, gah bu dağdan,*
*Axşam üstü qoy uzaqdan,*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi.*

28 ildir ki, Qarabağın adı hər dəfə çəkiləndə, bu sətirləri dinləyəndə ulu torpağın həsrətilə hər birimizin köksündən qəzəb vulkanı püskürür, ürəyimiz qisas hissi ilə alovlanır.

***Azərbaycan xalqı tarixboyu öz gücü, qüvvəti, zəhmətkeşliyi, mübarizliyi, düşmənə qarşı mübarizədə gözünü belə qırpmadan can verməyə hazır olan minlərlə qəhrəman övladı ilə tarixin çətin sınaqlarından üzüağ çıxıb. Başımızın üstündə yüksələn bayrağımız canını Vətən üçün sipər edən oğulların sayəsində dalğalanıb. Ən çətin məqamda belə, mübarizə əzmini itirməyən xalqımız yeri gələndə bütün dünyaya sübut edib nə qədər güclü olduğunu. Bu, dünən də belə idi, bu gün də belədir, gələcəkdə də belə olacaq. Çünki xalqımız böyük qələbələrdə imzası olan bir xalqdır. Biz inanırıq ki, Ali Baş Komandan cənab İlham Əliyevin "Biz birlikdə güclüyük" şüarı bir gün də Qarabağın azadlıq çağırışı olacaq. Və həmin gün xalqımızın bir an belə, düşünmədən canını Vətəni üçün qurban verməyə hazır olan igid oğullarının davamçılarının sayəsində düşmənə layiqli cavab veriləcək. Qarabağın azad olması yolunda Cocuq Mərcanlıdan, Talış yüksəkliyindən başlayıb Qızılqaya zirvəsinə doğru yol alan zəfər yürüşümüz torpaqlarımız azad edilənə kimi davam edəcək.***

**Ramiyyə ƏKBƏROVA**

## Tələbələrə onlayn təcrübə keçilib



İxtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Musiqi Kollecinin Kitabxana-informasiya ixtisası üzrə təhsil alan III kurs tələbələri üçün "Zoom" tətbiqi vasitəsilə onlayn təcrübə məşğələsi keçilib. Təcrübəyə Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Tamella Əsgərovanın moderatorluğu ilə start verilib.

Bildirilib ki, daim yeniləşən və təhsilin inkişafını tələb edən informasiyalı cəmiyyət kadr hazırlığı işinin yeni müstəvidə aparılmasını tələb edir. Hər bir iş təcrübə əsasında öyrənilir. Bu təcrübələrin tələbələrin bilik və bacarıqlarının artırılmasında çox böyük əhəmiyyəti vardır.

Sonra kitabxananın Komplektləşdirmə şöbəsinin müdiri Rahilə Məmmədova şöbənin iş prinsipi haqqında məlumat verib, tələbələrin sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

***Ordubad Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi tərəfindən Ordubad Rayon İpək Fabrikində taktiki-xüsusi təlim keçirilib.***

## Taktiki-xüsusi təlim olub



Təlimin keçirilməsində məqsəd fabrikdə baş verə biləcək yanğınların qarşısının alınması və söndürülməsi zamanı yarana biləcək döyüş sahələrini və həlledici istiqamətləri şəxsi heyətə öyrətməkdən, xilasetmə işlərinin aparılması və xəsarət alanlara ilk tibbi yardımın göstərilməsi üsullarını praktik məşq etdirməkdən ibarət olub.

Təlim planına uyğun olaraq Ordubad Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin şəxsi heyətinin hazırlığı yoxlanılıb, yanğın-xilasetmə hazırlığı üzrə şəxsi heyətdən normativlər qəbul edilib, komandir (rəis) heyətinin qərar qəbuletmə bacarığı yoxlanılıb və İpək Fabrikində yaradılmış praktik təlim yerlərində şərti baş vermiş yanğının söndürülməsi üzrə yanğından mühafizə bölmələrinin cəldliyinə, çevikliyinə və bacarıqlarına qiymət verilib.

Təlimə Ordubad Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin 12 nəfər şəxsi heyəti, 2 ədəd yanğınsöndürmə avtomobili, idarəetmə və rabitə vasitələri cəlb edilib. Təlim uğurla başa çatıb.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Müəllimlər İnstitutunda tələbə qəbulu planı yerləri artırılıb

Naxçıvan Müəllimlər İnstitutunda 2020-2021-ci tədris ili üçün tələbə qəbulu planı yerləri artırılaraq bakalavr səviyyəsində 430-a, magistratura səviyyəsində 50-yə çatdırılıb.

Bakalavr səviyyəsində kadr hazırlığı aparılan Biologiya müəllimliyi, İbtidai sinif müəllimliyi, Məktəbəqədər təhsil, Riyaziyyat və informatika müəllimliyi, Tarix müəllimliyi, Təhsildə sosial psixoloji xidmət, Təsviri incəsənət müəllimliyi, Xarici dil müəllimliyi (ingilis dili), Kitabxanaçılıq və informasiya fəaliyyəti, Psixologiya ixtisasları ilə yanaşı, qəbul planına yeni ixtisaslar daxil edilib. Bu ildən institutda Azərbaycan dili və ədəbiyyat müəllimliyi, Fizika müəllimliyi, İnformatika müəllimliyi, Musiqi müəllimliyi və Texnologiya müəllimliyi ixtisasları üzrə də qəbul aparılacaq. Bu il abituriyentlər Kitabxanaçılıq və informasiya fəaliyyəti və Psixologiya ixtisaslarında qiyabi şöbə üzrə də seçim edə biləcəklər.

Magistratura səviyyəsində qəbul aparılan Təhsildə sosial psixoloji xidmət, Pedaqogika nəzəriyyəsi və tarixi ixtisaslaşmaları ilə yanaşı, bu ildən Riyaziyyatın tədrisi metodikası və metodologiyası, Təsviri incəsənət fənninin tədrisi metodikası və metodologiyası ixtisaslaşmaları da qəbul planına əlavə edilib.

Qeyd edək ki, yüksəkixtisaslı kadr hazırlığı aparmaq üçün Naxçıvan Müəllimlər İnstitutu kifayət qədər maddi-texniki baza və kadr potensialına malikdir.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***


***İtmişdir***

Qarayev Fərhad Seyfəddin oğlunun adına olan 0200355562 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Düdəngə kəndində yaşamış Nuriyev Həsən Nəsrulla oğlunun adına verilmiş JN-243$^{B}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 358